<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td colspan="2">ITAL202, İtalyan dili, 3 kredit, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td colspan="2">Dillər və Ədəbiyyatlar</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td colspan="2">Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td colspan="2">2025/2026-cı tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td colspan="2">Gülşən Əliyeva</td></tr>
<tr><td>E-mail:</td><td colspan="2">aliyeva.gulshan@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td colspan="2"></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td colspan="2"></td></tr>
<tr><td>Məsləhət saatları</td><td colspan="2">Tələbələrlə razılaşma yolu ilə</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="3">ITAL201</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="3">İtalyan</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="3">Seçmə</td></tr>
<tr><td>Əsas dərslik</td><td colspan="3">1. Dərslik - “Nuovissimo Progetto Italiano 1” (libro dello studente, livello elementare A1-A2), T. Marin, L.Ruggieri e S. Magnelli; Çalışma kitabı - Quaderno degli esercizi (Progetto Italiano 1 livello elementare A1-A2), T. Marin e S. Magnelli.<br>Əlavə dərslik<br>1. “Parlo Italiano” Carmen Lizzadro, Elvira Marinelli, Annalisa Peloso</td></tr>
<tr><td rowspan="3">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">+</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">+</td></tr>
<tr><td rowspan="9">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>30</td></tr>
<tr><td>Aktivlik</td><td></td><td>5</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Quiz 1</td><td>(10.10.2025)</td><td>5</td></tr>
<tr><td>Quiz 2</td><td>(17.11.2025)</td><td>5</td></tr>
<tr><td>Quiz 3</td><td>(15.12.2025)</td><td>10</td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="3">Fənnin tədrisi prosesində tələbənin leksik bazanın formalaşdırılmasına və artırılmasına geniş yer verilir. Tədris zamanı tələbənin sahib olduğu leksik bazaya uyğun olaraq, praktiki tapşırıqlar vasitəsilə italyan dilinin əsas qrammatik elementlərinin öyrədilməsi nəzərdə tutulur. Dilin tədrisi zamanı tələbə oxuduğu sadə mətn ətrafında fikir yürütmək kimi bilik, bacarıq və vərdişlərə yiyələnir. Tələbə şifahi və yazılı nitqdə gündəlik istifadə olunan söz və söz birləşmələrini öyrənir, onlardan şifahi və yazılı nitqdə istifadə etmək bacarığına yiyələnir. İstifadə olunan dərsliklərdə leksik tapşırıq və materiallara geniş yer verilməsi ilə bərabər fonetik tapşırıqlara da yer verilir və bu növ tapşırıqlar dilin tədrisi zamanı tələbənin fonetik elementləri yaxşı mənimsəməsinə, eşitmə bacarıqlarını artırmağa xüsusi kömək edir. Qramatik qaydalar qısa şəkildə izah edilir. Qramatik qaydalara aid tapşırıqlar isə adətən keçirilən dərslik və dərs vəsaitlərində leksik və fonetik tapşırıqlarla sıx vəhdətdə olur. Dərsliklərin və dərs vəsaitlərinin bu cür formada olması tələbələrin qramatik bilikləri daha asan üsulla mənimsəməsində xüsusi rol oynayır və tədrisi daha maraqlı edir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="3">Fənnin tədrisinin əsas məqsədi İtalyan dilini daha tez və səmərəli şəkildə öyrədilməsi, şifahi və yazılı nitqin inkişaf etdirilməsi, oxuduğu sadə mətnləri başa düşmək və tələbənin italyan dilində ünsiyyət yaratmaq bacarıqlarını artırmaqdır.</td></tr>
</table>

| | |
|---|---|
| **Tədrisin (öyrənmənin) nəticələri** | Tələbə italyan dilində orta səviyyədə həmsöhbəti ilə şifahi və yazılı şəkildə dialoq qurmaq, özü haqqında məlumat vermək, öz fikrini qarşı tərəfə sadə şəkildə çatdırmaq bacarığına yiyələnir. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Aktivlik və tapşırıqlar**<br>Tələbənin keçirilən mövzuya uyğun olaraq tapşırıqları etməsi, vaxtında təhvil verməsi və dərs zamanı aktivliyi nəzərdə tutulur.<br><br>**Quizlər**<br>I Quiz (10.10.2025)<br>II Quiz (17.11.2025)<br>III Quiz (15.12.2025)<br>Tələbələrin mütəmadi olaraq keçirilən mövzular üzrə biliklərini müşahidə etmək üçün tədris semestri ərzində keçirilmiş qrammatik mövzular üzrə 3 quiz hazırlanır. Quizlər keçirilən mövzular üzrə hazırlanmış test və açıq suallardan ibarət olur.<br><br>Müəllimin qarşısındakı vəzifələr aşağıdakılardan ibarətdir:<br><br>• Tələbəni lazım olan bütün nəzəri və praktik materiallarla təmin etmək.<br>• Dərsin maraqlı və səmərəli keçməsi üçün əlindən gələni etmək.<br>• Dərs zamanı tələbəyə mümkün qədər çox informasiya ötürmək və yaranan suallara ətraflı cavab vermək.<br>• Tələbədə fənnə maraq oyatmaq üçün daha maraqlı, müasir və səmərəli tədris üsullarına üstünlük vermək.<br><br>Tələbənin qarşısında duran əsas vəzifələr:<br>• Yüksək davamiyyət. Dərsə gecikməmək və nizam- intizama riayət etmək. Dərs zamanı mobil telefonlar və digər texniki vəsaitlərdən istifadə etməmək.<br>• Verilən nəzəri və praktik materialları mənimsəmək və dərsə hazırlıqlı gəlmək.<br>• Mövzu ətrafında öz araşdırmasını aparmaq.<br>• Dərs zamanı fəal olmaq.<br>• Müəllim və tələbə yoldaşlarına hörmət etmək. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix (planlaşdırılmış dəyişdirilə bilər) | Dərs saatları | Fənnin mövzuları |
|---|---|---|---|
| 1. | 15.09.2025<br><br>19.09.2025<br><br>19.09.2025 | 18:30-20:00<br><br>17:00 -18.20<br><br>18:30 -20:00 | Unità 1: Tələbələrlə tanışlıq. İtaliya və İtalyan dili haqqında ümumi məlumat verilməsi. İtalyan dilində salamlama formalarını, özünü təqdim etmə cümlələrinin keçilməsi.<br><br>Unita' 1 - İtalyan əlifbasını oxumaq, hərflərin və hərf birləşmələrinin tələfüzzünün öyrənilməsi. Hərf birşləşmələinə aid sözlərə qulaq asmaq və tələffüz etmək.<br><br>Unita' 1 – Artikl ilə tanışlıq, onun növlərinin |

| | | | |
|---|---|---|---|
| | | | öyrənilməsi və bunlara aid sözlərə baxmaq. Cümlə içində artiklların işlənməsi. Dərs sonu ümumi təkrar. |
| 2. | 22.09.2025<br><br><br>26.09.2025<br><br>26.09.2025 | 18:30-20:00<br><br><br>17:00 – 18:20<br><br>18:30 – 20:00 | Unita' 1 Şəxs əvəzliklərinin keçirilməsi, Essere və Avere fellərinin hallandırılması, bu fellərə aid çalışmaların işlənməsi. Dialoqlara qulaq asıb oxumaq.<br><br>Həftənin günlərini, ilin aylarını və fəsil adlarının öyrənilməsi. Essere və Avere fellərinə aid cümlələr qurmaq. Bədən üzvlərinə aid sözlərin öyrənilmsəi. Dialoq qurmaq.<br>İtalyan dilində dialoqlara qulaq asıb suallara cavab vermək. Və Richhi e Poveri musiqi qrupunun "Sarà perchè ti amo" mahnısının oxunuşu və tələffüz edilməsi. |
| 3. | 29.09.2025<br><br><br>03.10.2025<br><br><br>03.10.2025 | 18:30-20:00<br><br><br>17:00 – 18:20<br><br><br>18:30 – 20:00 | Unità 1 e 2: Rəqəmlərin tələffüzü, İkili qruplar şəklində dialoqların qurulması. Adları hərfbəhərf tələffüz etmək. İo parlo italiano dərsliyindən söz bazasın artırmaq üçün yeni sözlərə baxmaq.<br><br>Unità 2: Söz önlərinin və saatın izahı, bu barədə cümlə nümunələri qurmaq. Bir dəvətin və ya təklifin qəbul edilməsi və rədd edilməsinə aid söz nümunələrinin öyrənilməsi. Söz önlərinin artikillarla birləşməsinin keçilməsi.<br><br>Çalışmalar işləmək Unità 3: Email və məktub yazmaq üçün lazım olan söz birləşmələrinin keçilməsi. İkili qrup şəklində email nümunəsi hazırlamaq. İndiki zaman aid fellərin öyrənilməsi. |
| 4. | 06.10.202<br><br><br>10.10.2025<br><br>**10.10.2025** | 18:30-20:00<br><br><br>17:00 – 18:20<br><br>**18:30 – 20:00** | Yiyəlik əvəzliklərinin öyrənilməsi. Buna aid dialoqlara qulaq asmaq. Ci və ci sono söz birləşmələrinin işləndiyi cümlə nümunələrini oxumaq. Restoranda yemık sifarişi verməyə aid cümlələri öyrənmək və ikili qrup halında buna aid cümlə nümunələri qurmaq.<br><br>Unita' 4: Sadə keçmiş zaman formasının keçilməsi buna aid cümlə nümunələrini oxumaq və dialoqlara qulaq asmaq. Keçmiş zaman fellərində işlədilən zərflərin öyrənilməsi.<br><br>**Quiz 1. Testlər işləmək və səsli tapşırıqlara qulaq asıb cavab vermək**. |

| | | | |
|---|---|---|---|
| 5. | 13.10.2025<br><br>17.10.2025<br><br>17.10.2025 | 18:30-20:00<br><br>17:00- 18:20<br><br>18:30 – 20:00 | Unita’ 4: Keçmiş sadə zaman formalarının keçilməsi və cümlələr qurmaq.<br>A1-A2 səviyyəsində kiçik hekayə videosuna baxıb tərcümə etmək. Keçmiş zamanda sadə cümlələr qurmaq. Söz bazasını inkişaf etdirmək üçün keçirilən sözləri təkrarlamaq.<br><br>Peşə adlarının keçilməsi və fare – etmək feli ilə cümlə nümunələrinin qurulması. Potere, Volere, Dovere fellərinin hallandırılması. Ricchi e Poveri musiqi qrupunun “Mamma Maria” mahnısının oxunuşu və tərcümə edilməsi.<br><br>Rejissoru Roberto Bennini olan “La vita è bella” filminə baxmaq, filmdəki sözləri tərcümə etmək, cümlə quruluşların təhlili. |
| 6. | 20.10.2025<br><br>24.10.2025<br><br>24.10.2025 | 18:30-20:00<br><br>17:00- 18:20<br><br>18:30 – 20:00 | Unita’ 5: Gələcək zamanda fel formalarını keçirilməsi, buna aid cümlələr qurmaq və dialoqlara qulaq asmaq. Hava sözlərin öyrənilməsi və bu mövzuda videolara baxmaq.<br><br>Ailə üzvlərinə aid sözlərin öyrənilməsi və ailə haqqında inşa yazmaq. Yeni sözlər keçmək.<br><br>İtalyan modası haqqında mətni oxumaq və tərcümə etmək. Zaman formalarının təkrarı. İo Parlo İtaliano kitabından yön istiqamət bildirən sözləri öyrənmək və bunlara aid cümlələr qurmaq. |
| 7. | 27.10.2025<br><br>31.10.202<br><br>31.10.2025 | **Aralıq imtahanı**<br><br>17:00- 18:20<br><br>18:30 – 20:00 | Unità 5 ‘ İtalyan bayramlarına aid mətni oxumaq və mətnə aid suallara cavab vermək. Vorrei və mi piace söz birləşmələri ilə başlayan cümlələr qurmaq buna aid çalışmalar işləmək.<br><br>İtaliya bayramlarına aid qısa videolara baxmaq yeni sözləri videodan seçmək. Öz ölkəmizdə olan bayramlaq haqqında italyan dilində danışmaq. |
| 8. | 03.11.2025<br><br>07.11.2025 | 18:30-20:00<br><br>17:00- 18:20 | Unità 5-6: Yiyəlik əvəzliklərini keçilməsi buna aid cümlə nümunələri qurmaq. Yemək və mətbəxə aid sözlər öyrənmək və dialoqları oxuyub qulaq asmaq.<br><br>Unita’ 6: Pizza və pasta haqqında mətni oxumaq və tərcümə etmək. Öyrənilmiş yeni sözlərin təkrar edilməsi. |

| | | | |
|---|---|---|---|
| | 07.11.2025 | 18:30 – 20:00 | İtalyan dilində qısa videolara baxıb tərcümə etmək. |
| 9. | 10.11.2025 Qeyri-iş günü tətil<br><br>14.11.2025<br><br>14.11.2025 | 18:30-20:00<br><br>17:00- 18:20<br><br>18:30 – 20:00 | Unita' 6, Imperfetto irregolare keçmiş zaman formasının keçilməsi buna aid cümlələr qurmaq və dialoqlara qulaq asmaq.<br><br>Unita' 6, İtalyan filmi haqqında olan mətnləri oxumaq və tərcümə etmək. Keçmiş zamana aid çalışmalar işləmək. Laura Pausini-nin Solitudine mahnısına qulaq asıb tərcümə etmək. |
| 10. | **17.11.2025**<br><br>21.11.2025<br><br>21.11.2025 | **18:30-20:00**<br><br>17:00- 18:20<br><br>18:30-20:00 | **Quiz 2. Test və sual cavab.**<br><br>Unita' 6-7 – Imperfetto və Passato prossimo zaman formalarının müqayisə edilməsi və bu zaman formalarına aid cümlə nümunələri oxumaq və ikili qruplar halında bu zamanlara aid misallar qurmaq.<br><br>Unita 7, Trapassato prossimo keçmiş bitmiş zaman formasının keçilməsi və buna aid cümlələr qurmaq. İtalyan dilində danışıq saatı mini conversation sual-cavab, Io parlo italiano dərsliyindən sözlər öyrənmək. |
| 11. | 24.11.2025<br><br>28.11.2025<br><br>28.11.2025 | 18:30-20:00<br><br>17:00- 18:20<br><br>18:30-20:00 | Unita 8 – Market məhsullarına aid yeni sözlərin keçilməsi və alış-verişlə bağlı cümlələr öyrənmək. Dialoqlara qulaq asıb suallara cavab yazmaq.<br><br>Tempo libero – Asudə vaxta aid ikili qruplar şəklində dialoq qurmaq. Nəqliyyat vasitələrinə aid sözləri öyrənmək və bunlara aid dialoq videolarına baxmaq. |
| 12. | 01.12.2025<br><br>05.12.2025<br><br>05.12.2025 | 18:30-20:00<br><br>17:00- 18:20<br><br>18:30-20:00 | Unita 8 I pronomi diretti ed indiretti al passato. Və "Ne" əvəzliyinin cümlədə işlənməsi.<br><br>Unita 9, Qayıdış fellərini öyrənmək və onların şəxsə görə hallanması. Bir məsələ haqqında öz fikrini bildirmək və qarşısındakı insanın fikirlərini soruşmaq.<br><br>Unita 9, Geyim əşyalarını öyrənmək, geyim ölçülərinin keçilməsi buna aid cümlələr qurmaq. İl mondo mahnısının sözlərini oxumaq və tərcümə etmək. Kiçik hekayə videolarına baxmaq. Sual-cavab. |

| | | | |
|---|---|---|---|
| 13. | 08.12.2025<br><br><br><br>12.12.2025<br><br><br>12.12.2025 | 18:30-20:00<br><br><br><br>17:00- 18:20<br><br><br>18:30-20:00 | Unita 9,İtalyan modası haqqında mətni oxumaq və tərcümə etmək. Zaman formalarının təkrarı. İo Parlo İtaliano kitabından yön istiqamət bildirən sözləri öyrənmək və bunlara aid cümlələr qurmaq.<br><br><br>İtalyan dilində kiçik hekayə videolarına baxmaq. Və mahnıya qulaq asmaq. |
| 14. | **15.12.2025**<br><br><br>19.12.2025<br><br><br>19.12.2025 | **18:30-20:00**<br><br><br>17:00- 18:20<br><br><br>18:30-20:00 | **Quiz 3 – Test, mini inşa yazmaq və sual-cavab.**<br><br>Keçirilən zaman formalarına aid fel formalarının keçilməsi yeni fellərin öyrənilməsi. Unita 7-8-9.<br><br>İtalyan mədəniyyətinə aid mətnin oxunması və tərcümə edilməsi. Zamana aid çalışmalar işləmək. |
| 15. | 22.12.2025<br><br><br><br><br>26.12.2025<br><br><br><br><br>26.12.2025 | 18:30-20:00<br><br><br><br><br>17:00- 18:20<br><br><br><br><br>18:30-20:00 | Unita 10-11 – İtalyan televiziyasına aid mətni oxuyub tərcümə etmək. Yön istiqamət bildirən sözlərin öyrənilməsi. Ünvanı soruşmaq. İnkar formasının keçilməsi.<br><br><br>İtalyan dilində A1-A2 səviyyəsində qısa hekayə vidosuna baxıb tərcümə etmək. Dialoqlara qulaq asmaq və çalışmalar işləmək. Keçirilənlərin təkrar edilməsi.<br><br>Keçirilən mövzuların təkrarı, dialoqlara qulaq asmaq, çalışmalar etmək. İmtahanda düşən suallara oxşar misallara baxmaq. |
| **Final imtahanı** | | | |